2020-2023-cü illər ərzində "Scopus"da indekslənən jurnallarda dərc olunan elmi işlərin təhlilinə əsasən, Elm və Təhsil Nazirliyinə tabe 5 universitetin göstəricilərini təqdim edirik:




Nəticələrə əsasən, Bakı Dövlət Universiteti son 4 ildə 2627 məqalə sayı ilə ən yüksək nailiyyət göstərib. Universitet qeyd olunan illər ərzində elmi məqalələrin sayına görə həm də Cənubi Qafqaz regionunda lider mövqe tutub.

Azərbaycan Dövlət Neft və Sənaye Universiteti (ADNSU), Azərbaycan Dövlət İqtisad Universiteti (ADİU) və Azərbaycan Texniki Universiteti (AzTU) dərc olunan məqalələrin sayında hər il ardıcıl artım nümayiş etdirib.

BDU, ADNSU və ADİU həm də ölkə üzrə ilk üçlükdə yer alıb.

Qeyd olunan ali təhsil müəssisələrinin elmi nəşrlərinin sayı 2023-cü ildə əhəmiyyətli

dərəcədə artıb. Bu illərdə həmin universitetlərdən 5157 tədqiqat işi bazaya daxil edilib.